**Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında İctimai Şuraya seçkilərin keçirilmə vaxtı müəyyənləşib**

Azərbaycan Respublikasının Energetika Nazirliyinin fəaliyyət istiqamətləri üzrə hüquqi aktların qəbulunda, nazirliyin fəaliyyətinə ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının iştirakını təmin etmək məqsədilə yaradılacaq İctimai Şuraya seçkilərin vaxtı dəqiqləşib. “İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununa (22 noyabr 2013-cü il, № 816-IVQ), bu qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2014-cü il tarixli, 89 nömrəli fərmanına və Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq Energetika Nazirliyi yanında İctimai Şura üzvlüyünə 9 nəfərin namizədliyi qeydə alınıb. İctimai Şuraya seçkilər **24 oktyabr 2017-ci il** tarixində **saat 11.00-da** Nazirliyin (Ü.Hacıbəyov küçəsi - 40 Hökumət Evi ) iclas zalında keçiriləcək.

Seçki Komissiyası tərəfindən İctimai Şura üzvlərinin say həddi 7 nəfər müəyyən edilib. İctimai Şura üzvlüyünə 11 nəfərin namizədliyi qeydə alınıb. İctimai Şura üzvlüyünə seçkilərin keçirilməsi ilə bağlı namizəd irəli sürüb-sürməməsindən asılı olmayaraq, vətəndaş cəmiyyəti institutlarının bərabər sayda təmsilçilərindən ibarət birgə yığıncaqda İctimai Şuranın üzvləri irəli sürülmüş namizədlər içərisindən gizli səsvermə yolu ilə seçiləcək. Birgə yığıncaqda iştirak edənlərin yarıdan çoxunun səsini toplamış şəxslər İctimai Şuranın tərkibinə seçilmiş hesab olunurlar.

Birgə yığıncaqda təmsilçilərinin iştirak etməsini istəyən vətəndaş cəmiyyəti institutları (1 nəfər olmaqla ) seçki gününə on gün qalanadək, həmin şəxslər barədə zəruri məlumatları (adı, soyadı, atasının adı, təvəllüdü, yaşayış yeri, əlaqə vasitəsi) göstərməklə, seçki komissiyasına müraciət etməlidirlər.

Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında İctimai Şuraya seçkilərin keçirilməsi və seçilən vətəndaş cəmiyyəti institutları ilə bağlı ətraflı məlumatlar nazirliyin rəsmi internet səhifəsində (http://www.minenergy.gov.az/) mütəmadi yerləşdiriləcək.